

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 173 (21.583)

*16 sentyabr 2016-cı il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də – Bilik Günündə Bakının Sabunçu rayonundakı 311 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsib və burada yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, 311 nömrəli məktəb 2007-ci ildən fəaliyyət göstərir. Sonradan ərazidə əhalinin çoxalması ilə əlaqədar məktəbə gələn şagirdlərin sayında da böyük artım olub. Bu da təbii ki, təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib və məktəb üçün yeni binanın tikintisi artıq zərurətə çevrilib. Ümumi sahəsi 6700 kvadratmetrdən çox olan məktəbdə 47 sinif otağı var.

Dövlətimizin başçısı ilk dəfə məktəbə qədəm qoyan birinci sinif şagirdləri ilə görüşüb, onları Bilik Günü münasibətilə təbrik edib.

Dövlətimizin başçısı şagirdlərlə şəkil çəkdirib.

Daha sonra Prezident İlham Əliyev sinif otaqlarında yaradılan şəraitlə maraqlanıb.

Sonra Prezident İlham Əliyev məktəbin müəllim və şagird kollektivi ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.



## Ə.M.Əbilova “Əməkdar kənd təsərrüfatı işçisi” fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında baytarlıq sahəsində səmərəli fəaliyyətinə görə Əbil Mehrac oğlu Əbilova **“Əməkdar kənd təsərrüfatı işçisi”** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 15 sentyabr 2016-cı il*

## Bilik Günündə Fizika-Riyaziyyat Təmayüllü Lisey kompleksi istifadəyə verilmişdir






Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılmışdır.

Sentyabrın 15-də – Bilik Günündə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey kompleksinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 15 sentyabr Bilik Günü və yeni tədris ilinin başlanması münasibətilə muxtar respublikanın bütün ümumtəhsil, ali, orta ixtisas və peşə məktəblərinin şagird və tələbələrini, pedaqoji kollektivləri, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını, Şərur şəhərindəki Fizika-Riyaziyyat Təmayüllü Liseyin kollektivini isə həm də yeni tədris kompleksinin istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Xalqımızın dahi rəhbəri Heydər Əliyev ötən əsrin 70-ci illərində təhsil sahəsinə qayğı göstərir və deyirdi: ***“Gənc nəslin tərbiyəsinə və təhsilinə ciddi fikir versək, onda gələcəyimiz üçün böyük işlər görmüş oluruq”.*** Azərbaycan xalqının ümummilli liderinin müəllifi olduğu təhsil strategiyası ölkəmizdə yeni cəmiyyət quruculuğunun əsasını qoymuşdur. Ulu öndər savadlı və milli dəyərlərə sədaqətli kadrların hazırlanmasını inkişafın ən vacib faktoru kimi müəyyənləşdirmiş və bu sahədə sistemli tədbirlər həyata keçirmişdir.



Qeyd olunmuşdur ki, bu gün ulu öndərimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də təhsilin inkişafına böyük qayğı göstərir. Yeni məktəb binalarının tikilməsi, müasir universitet şəhərciklərinin, peşə və orta ixtisas məktəbləri üçün tədris korpuslarının istifadəyə verilməsi gənclərin hərtərəfli təhsili üçün etibarlı zəmin yaratmışdır. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında həyata keçirilən təhsil islahatları artıq öz bəhrəsini verməkdədir. Bu gün muxtar respublika gəncləri ən qabaqcıl informasiya texnologiyalarından, distant təhsil imkanlarından istifadə edərək hərtərəfli təhsil alırlar. Naxçıvan şəhərində də, ən ucqar dağ və sərhəd kəndlərində də şagirdlərin istifadəsinə müasir tədris avadanlıqları, sürətli internetə çıxışı olan kompüterlər, elektron lövhələr, zəngin fonda malik olan kitabxanalar və idman zalları verilib. Bunun nəticəsidir ki, hər il ali məktəblərə qəbulda məzunlarımız yüksək nəticə göstərirlər. Bir sözlə, muxtar respublikada gənclərin zehni və fiziki inkişafı, bilik və bacarıqlarını artırmaları üçün lazım olan bütün şərait yaradılıb.

Ali Məclisin Sədri demişdir: Vətənə, xalqa xidmətin ən yaxşı yolu mükəmməl təhsil almaqdır. Hər bir gənc bilməlidir ki, o yaxşı təhsil almaqla, peşə öyrənməklə, ilk növbədə ölkəmizin inkişafına öz töhfəsini vermiş olur. Ölkəmizin gələcəyi bugünkü gəncliyin təhsilə və ya peşə sahələrinə nə dərəcədə yiyələnməsindən, tariximizi, dilimizi, adət-ənənələrimizi necə öyrənməsindən, milli dəyərlərimizi hansı səviyyədə mənimsəməsindən, əsl vətəndaş kimi formalaşmasından asılıdır. Çox istərdik ki, hər bir gənc biliklərə dərindən yiyələnsin, vətənpərvər olsun, öz intellektual və yaradıcı potensialını müstəqil Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafına həsr etsin.

Təhsil islahatları o zaman fayda verir ki, o, cəmiyyətin konkret ehtiyaclarına uyğunlaşdırılsın. Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey də bu zərurətdən yaradılmışdır. Muxtar respublikada texniki fənlər üzrə şagirdlərin istedad və bacarıqlarının aşkara çıxarılmasında liseyin üzərinə mühüm vəzifələr düşür. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, müəllim-şagird münasibətləri qarşılıqlı hörmət və tələbkarlıq əsasında qurulmalıdır.

Ali Məclisin Sədri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ***“İyirmi birinci əsrdə ölkələrin gələcəyi bilavasitə təhsilin, biliklərin səviyyəsindən asılı olacaqdır. Ona görə uşaqlarımız bilikli, savadlı olmalıdırlar, dünyada gedən yenilikləri bilməlidirlər”*** fikirlərini diqqətə çatdırmış, bu yolda muxtar respublikanın bütün şagird, kursant və tələbələrinə, müəllimlərə, bütün təhsil sistemində çalışanlara uğurlar arzulamış, bir daha onların bilik bayramını təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək demişdir ki, hazırda muxtar respublikanın orta ixtisas təhsili müəssisələrində 1003 tələbənin təhsili ilə 209 müəllim, peşə təhsili müəssisələrində 636 müdavimin təhsili ilə 19 müəllim və 17 istehsalat təlim ustası məşğul olur. Cari tədris ilində ümumtəhsil məktəblərində birinci siniflərdə 5308 olmaqla, ümumilikdə, 45 min 497 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 6657 müəllim məşğul olur. 2016-2017-ci tədris ilində isə müəllim kimi fəaliyyətə başlamaq üçün 304 gənc kadr işə götürülmüşdür. Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, yeni sənaye və xidmət sahələrinin yaradılması, həmin sahələrdə müasir informasiya texnologiyalarının tətbiqi təhsil sahəsində, xüsusən də dəqiq elmlər sahəsində dərin bilik verilməsinə tələbatı artırır. Bununla əlaqədar muxtar respublikamızda dəqiq elmlər sahəsi üzrə kadrların

*Ardı 2-ci səhifədə*

hazırlanması diqqətdə saxlanılmış, Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılmışdır. 2015-2016-cı tədris ilindən fəaliyyətə başlayan liseyin VII-X siniflərinə ötən il muxtar respublika ümumtəhsil məktəblərindən qəbul aparılmış, onlardan 150-si halhazırda təhsilini davam etdirir. Cari tədris ilində liseyin VII siniflərinə qəbul üçün 474 şagird müraciət etmiş, imtahanların nəticələrinə əsasən 54 şagird liseyə qəbul olunmuşdur. Bu tədris ilində liseydə 204 şagird təhsil alacaqdır. Liseyin pedaqoji kadr potensialını təmin etmək məqsədi ilə müxtəlif ixtisaslar üzrə sənəd təqdim etmiş müəllimlərin imtahanı keçirilmişdir. Hazırda liseydə 26 müəllim şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olur.

Qeyd olunmuşdur ki, muxtar respublikada təhsilin inkişafı sahəsində kompleks tədbirlər görülür. Hazırda ümumtəhsil məktəblərində







623 elektron lövhə və 3725 dəst kompüter quraşdırılmış, kompüterlərdən 2890-ı internetə qoşulmuşdur. Bütün bunlar da tədrisin səviyyəsini xeyli yüksəltmişdir. Belə ki, 2015-2016-cı tədris ilində doqquzuncu siniflər üzrə buraxılış imtahanlarının nəticələrinə görə, Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəbləri ölkəmizdə ən yüksək nəticə göstərmişlər.

Fizika-Riyaziyyat Təmayüllü Liseyin şagirdi Elvin Cabbarlı demişdir: Bu gün muxtar respublikada şagirdlər hər cür avadanlıqlarla təchiz edilmiş, ən müasir informasiya texnologiyaları ilə təmin olunmuş məktəblərdə təhsil alırlar. Bu isə bizi daha da yaxşı oxumağa ruhlandırır. Həyata keçirilən tədbirlər nəticəsində hər bir şagird milli dəyərlərimizi öyrənməyə, zəruri elmi biliyə və dünyagörüşə yiyələnməyə çalışır. İnformasiya texnologiyalarının geniş yayıldığı bir dövrdə muxtar respublikamızda dəqiq elmlər sahəsinin inkişafı məqsədilə Fizika-Riyaziyyat Təmayüllü Liseyin fəaliyyətə başlaması gənclərə böyük imkanlar yaratmışdır. Elvin Cabbarlı təhsilə göstərilən qayğıya görə şagirdlər adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri açılışı bildirən



lenti kəsmiş, yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, lisey hər biri zirzəmi qatı ilə birlikdə 5 mərtəbədən ibarət tədris və yataqxana binalarından ibarətdir. 380 şagird yerlik tədris binasında 5-i elektron lövhəli olmaqla, 19 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat otağı, 2 kompüter otağı, müəllimlər otağı, 55 yerlik akt zalı, kitabxana, arxiv və bufet vardır. Liseydə 42 kompüter quraşdırılmış və internetə qoşulmuş, kitabxanada 4184 dərslik və 2065 bədii ədəbiyyat olmaqla, 6249 kitab şagirdlərin istifadəsinə verilmişdir.

Lisey muxtar respublikanın distant təhsil şəbəkəsinə qoşulmuş, 2 mindən artıq elektron dərsliklə təmin edilmişdir. Elektron lövhəli sinifdə Heydər Əliyev Muzeyi ilə əlaqə yaradılmış və muxtar respublikanın 210 təhsil müəssisəsinin iştirakı ilə dərs keçirilmişdir.

Ali Məclisin Sədri şagirdlərin kompüter biliklərinin möhkəmləndirilməsi, dərsdənkənar məşğələlərinin düzgün təşkili, onların muzeylərə ekskursiyalara aparılması və müəllimlərin kurslarda iştirakının təmin edilməsi barədə tapşırıqlar vermişdir.

Liseyin pedaqoji kollektivi ilə görüşən Ali Məclisin Sədri demişdir ki, liseydə müasir tədris şəraiti yaradılıb. Bu da tədrisin keyfiyyətinin artmasına imkan verəcəkdir. Şagirdlərə dərslər qavramaq yolu ilə öyrədilməlidir. Dəqiq elmlərin tədrisində bu, vacib məsələdir. Elektron lövhələrdən, kompüterlərdən, müasir laboratoriyalardan səmərəli istifadə olunmalıdır. Liseydə istedadlı və bilikli gənclər hazırlanmalıdır. Bu liseyin məzunlarının gələcək fəaliyyəti və cəmiyyətdə layiqli yer tutmaları daim diqqətdə saxlanılacaqdır. Muxtar respublikanın bütün bölgələrindən imtahan yolu ilə qəbul olunmuş şagirdlər liseydə təhsil alır. Pedaqoji kollektiv şagirdlərin yüksək təhsil alması qayğısına qalmalı, nizam-intizama ciddi əməl olunmalıdır.

Kollektiv adından minnətdarlıq edən liseyin müəllimi Günay Ağayeva yaradılan müasir maddi-texniki bazanın istedadlı, savadlı və vətənpərvər gənclər yetişdirilməsinə imkan verəcəyini bildirmiş, bu yolda səylə çalışacaqlarına söz vermişdir.

273 yerlik yataqxana binasında 5 və 3 yerlik 87 yataq otağı, növbətçi, nəzarətçi və istirahət otaqları, həkim və müayinə otaqları, idman zalı, yeməkxana, mətbəx, ərzaq anbarları, bərbərxana, təsərrüfat otağı və camaşırxana vardır. Otaqların hər biri zəruri mebel avadanlıqları ilə təchiz olunmuşdur.

Ali Məclisin Sədri şagirdlərin qidalanmasına və fiziki hazırlıqlarına ciddi diqqət yetirilməsinin vacibliyini qeyd etmişdir.

Binanın həyətində də abadlıq işləri aparılmış, yaşıllıqlar salınmış, işıqlandırma sistemi quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev adına Hərbi Liseydə Bilik Günü münasibətilə tədbir keçirilib

***Heydər Əliyev adına Hərbi Liseydə yeni tədris ilinin başlanması və Bilik Günü münasibətilə keçirilən tədbirdən əvvəl ümummilli liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü ziyarət olunub, önünə gül dəstələri düzülüb.***



Mərasimə hazırlıq barədə raportdan sonra şəxsi heyət orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himnini ifa edib.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov kursantları Bilik Günü münasibətilə təbrik edib.

Nazir bildirib ki, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Belə ki, bu gün Azərbaycan Respublikasının Silahlı Qüvvələri həm güclü maddi-texniki bazaya, həm də peşəkar və vətənpərvər şəxsi heyətə malikdir. Müasir dövrdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin mühüm bir istiqamətini ixtisaslı kadrların yetişdirilməsi təşkil edir. Heydər Əliyev adına Hərbi Lisey yüzlərlə vətənpərvər gənci birləşdirən müasir hərbi təhsil müəssisəsinə çevrilib.

“Bu gün biz iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün zabit korpusunun formalaşması işinə ulu öndərimizin adını daşıyan hərbi lisey də öz töhfəsini verir. Ötən dövrdə hərbi liseydə möhkəm maddi-texniki baza və nümunəvi hərbi tədris sistemi yaradılıb. Bu gün liseyin mindən çox məzunu Azərbaycan Respublikası Silahlı Qüvvələri sıralarında zabit kimi xidmətini davam etdirir”, – deyən Zakir Həsənov kursantlara vətənimiz Azərbaycanın gələcək müdafiəçiləri kimi ali hərbi məktəblərdə yaxşı təhsil almağı, hərb sənətinə dərindən yiyələnməyi, vətənə sədaqətlə xidmət etməyi arzu edib.

Liseyin rəisi, general-mayor Elman Orucov qeyd edib ki, hərbi liseydə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yüksək qayğısı ilə müasir şərait yaradılıb. Bunun nəticəsidir ki, Azərbaycanın digər rayonlarından da liseyə qəbul olunanların sayı artıb. Bu gün internet şəbəkəsinə qoşulmuş 2 kompüter otağı, 3 laboratoriya, 19 kabinə, 2 linqafon otağı və müasir avadanlıqlarla təchiz olunmuş digər otaqlar, o cümlədən 8500 ədəd kitab fondu olan zəngin kitabxana kursantların istifadəsindədir.

Liseyin rəisi kursantların təhsili ilə yanaşı, sosial müdafiəsi və vətənpərvərlik tərbiyəsinin də diqqət mərkəzində olduğunu bildirib.

Vurğulanıb ki, muxtar respublikanın gəncləri arasında vətənpərvərlik hisslərinin gücləndirilməsinin nəticəsidir ki, 2016-cı ildə 987 nəfər hərbi liseyə qəbul olunmaq üçün müraciət edib. Onlardan 671 nəfəri qəbul imtahanlarında iştirak edib, yüksək nəticə göstərən 180 nəfər 1-ci kursa qəbul olunub.

Sonra çıxış edən kursant və valideynlər ölkəmizdə ordu quruculuğundan danışıblar, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Heydər Əliyev adına Hərbi Liseyin bir qrup hərbi qulluqçusunu “Qüsursuz xidmətə görə” 1-ci, 2-ci və 3-cü dərəcəli medallarla təltif edib.

Sonda orkestrin müşayiəti ilə “Hərbi lisey marşı” ifa olunub, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov liseyin pedaqoji kollektivi ilə də görüşüb. Görüşdə qeyd olunub ki, kursantların gələcək ali hərbi təhsil illərində və xidmət dövründə qazandıqları uğurların təməlində müəllimlərin zəhməti dayanır. Valideynlərlə görüşən Zakir Həsənov liseydə yaradılan şəraitdən danışıb və əminliklə ifadə edib ki, bu vətənpərvər gənc hərbçilərimizin köməyi ilə işğal altında olan torpaqlarımız tezliklə işğaldan azad olunacaq.

Valideynlər bildiriblər ki, övladlarının Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin əmrlərinə hər an hazır olan müstəqil Azərbaycanın müdafiəçiləri kimi yetişmələrindən qürur hissi duyurlar.

**Xəbərlər şöbəsi**

# Bilik Günü muxtar respublikada bayram əhval-ruhiyyəsi ilə qeyd olunub

## Naxçıvan şəhəri



15 sentyabr – Bilik Günü münasibətilə Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə keçirilən tədbiri Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Qanun Məmmədov açaraq bildirib ki, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilə böyük diqqət və qayğı göstərilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, muxtar respublikamızda 200-ə yaxın təhsil müəssisəsi tikilərək və yaxud yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilib. Təbii ki, görülən işlərdən Naxçıvan şəhərinə də böyük pay düşüb. Naxçıvan şəhəri üzrə 17 tam orta məktəb var ki, bunlardan 15-i yeni binada fəaliyyət göstərir, biri yeni tikilir, digərində isə əsaslı yenidənqurma işləri aparılır.

Qeyd olunub ki, təhsil quruculuğu sahəsində görülən işlər təhsilin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaradıb. Bunun nəticəsidir ki, hər il muxtar respublikamızın digər ümumtəhsil müəssisələrində olduğu kimi, Naxçıvan şəhərində fəaliyyət göstərən təhsil müəssisələrindən də ali məktəblərə qəbul olunan məzunların sayı artır. Bu il Naxçıvan şəhəri üzrə ali məktəblərə 380 nəfər qəbul olunub. Ümumi qəbul faizi 74,9 faiz təşkil edib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək təhsilə göstərilən dövlət qayğısından danışıb, müəllim və şagirdləri Bilik Günü münasibətilə təbrik edib.

* * *

## Şərur rayonu



***Şərur rayonunun təhsil ocaqlarında Bilik Günü və yeni dərs ili münasibətilə tədbirlər keçirilib.***

Tədbirlərdə bildirilib ki, son 20 ildə Şərur şəhərində və rayonun kənd yaşayış məntəqələrində 40-dan artıq yeni məktəb binası tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilib. Yeni məktəblər müasir tələblərə cavab verən avadanlıq və təlimin texniki vasitələri ilə təmin olunub, hamısında mərkəzləşdirilmiş istilik sistemi quraşdırılıb. Hazırda Şərur şəhərində, Çəmənli və Arbatan kəndlərində orta məktəb binalarının tikintisində işlər sürətlə davam etdirilir.

Göstərilən qayğıya cavab olaraq ötən tədris ilində də rayonun pedaqoji kollektivləri xeyli gözəçarpan nəticələr qazanıblar. Tam orta təhsili başa vuran 674 məzunun 512 nəfəri qəbul imtahanlarında iştirak etmək üçün sənəd verib, onlardan 288 nəfəri uğurlu nəticə göstərib. Məzunlardan 56 nəfəri 500-700 arası, 18 nəfəri 600-dən yuxarı bal toplayaraq ali məktəb tələbəsi adını qazanıb.

Vurğulanıb ki, bu tədris ilində rayonda 54 tam orta məktəb fəaliyyət göstərəcəkdir. Rayon üzrə I siniflərdə 1071, X siniflərdə 752, XI siniflərdə 583 nəfər, bütövlükdə, 9 min 275 şagird məktəblərdə təhsil alacaq. Onların təlim-tərbiyəsi ilə 1800-dən artıq müəllim məşğul olacaq. Rayondakı ümumtəhsil müəssisələrinin müəllim kadrları ilə tam komplektləşdirilməsi üçün lazım olan boş yerlər haqqında əvvəlcədən məlumat verilib, sentyabrın 6-da Naxçıvan şəhərində keçirilmiş təhsil yarmarkasında 73 gənc müəllim işə qəbul edilib. Onların çoxu ucqar dağ kəndlərində ehtiyac olan ixtisaslar üzrə işləməyə üstünlük veriblər.

Qeyd edilib ki, yaradılan şərait daha böyük uğurlar qazanmağa imkan verib. Rayonun pedaqoji kollektivləri növbəti dərs ilində bu şəraitdən səmərəli istifadə edəcək, daha böyük uğurlara nail olacaqlar.

* * *

## Babək rayonu

***Bilik Günü və 2016-2017-ci tədris ilinin başlanması münasibətilə Babək rayonunun ümumtəhsil məktəblərində də tədbirlər keçirilib.***



Babək qəsəbə 2 nömrəli tam orta məktəbdə keçirilən tədbiri rayon Təhsil Şöbəsinin müdiri Ovni Muradov açıb.

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov əlamətdar gün münasibətilə rayonun bütün pedaqoji kollektivlərini təbrik edib, onlara təhsildə yeni-yeni nailiyyətlər arzulayıb. Qeyd olunub ki, iki məktəb istisna olmaqla, rayonun bütün təhsil ocaqları tikilən və ya yenidən qurulan binalarda fəaliyyət göstərir. Bütün təhsil ocaqlarının maddi-texniki bazası gücləndirilib, tədrisin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait yaradılıb. Hazırda 270 şagird yerlik Məzrə kənd tam orta məktəbinin binasında son tamamlama işləri aparılır.

Vurğulanıb ki, rayonda 36 tam orta, 6 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Bu il ali məktəblərə qəbul imtahanlarında daha yüksək göstəricilərə nail olunub. Belə ki, orta məktəbi bitirən 582 məzundan 452 nəfəri ali məktəblərə sənəd verib. Məzunlardan 1-i qızıl medala layiq görülüb. Ali təhsil ocaqlarına sənəd verənlərdən 251 nəfəri tələbə adını qazanıb. Onlardan 46-sı 500-700 intervalında, 9 nəfəri isə 600-dən yuxarı bal toplayıb.

Məktəbin direktoru Allahverdi Allahverdiyev təhsil ocağının uğurlarından danışaraq bildirib ki, məktəbi ötən tədris ilində 20 məzun bitirib. Onlardan 14-ü ali təhsil ocaqlarına sənəd verib. 10 məzun tələbə adını qazanıb. Tələbələrdən 1 nəfəri 649 bal toplayıb. Çalışacağıq ki, bizə göstərilən qayğı müqabilində hər il daha yüksək nəticələr əldə edək.

Sonra zəng çalınıb, şagirdlər siniflərə daxil olublar.

Qeyd edək ki, bu il rayon üzrə məktəblərin birinci siniflərinə 938 şagird gedir.

* * *

## Ordubad rayonu

***Bilik Günü və yeni dərs ilinin başlanması münasibətilə Ordubad şəhərindəki Əkbər Ağayev adına 3 nömrəli tam orta məktəbdə keçirilən tədbiri rayon Təhsil Şöbəsinin müdiri Samir Zeynalov açıb.***



Tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov bildirib ki, rayonda 34 tam orta, 2 ümumi, 1 ibtidai məktəb fəaliyyət göstərir. Onların 24-ü üçün müasir tələblərə cavab verən yeni binalar inşa olunub. Yaxın vaxtlarda Baş Dizə kənd tam orta məktəbi də öz fəaliyyətini yeni binada davam etdirəcək. Rayonun təhsil ocaqlarının yeni informasiya texnologiyaları ilə təminatı yüksək səviyyədədir. Bu gün məktəblərimizdə 80 ədəd elektron lövhədən, 504 ədəd kompüterdən istifadə edilir. Bütün bunlar isə son nəticədə təhsilin səviyyəsinin yüksəlməsinə şərait yaradıb. Belə diqqət və qayğıya cavab olaraq rayonumuzun təhsil işçiləri öz işlərini günün tələbləri səviyyəsində qurmağa çalışır, üzərlərinə düşən məsuliyyəti və vəzifələri dərindən dərk edərək böyüməkdə olan gənc nəslin təlim və tərbiyəsi sahəsində fəaliyyətlərini daha da gücləndirirlər.

Qeyd olunub ki, 2015-2016-cı tədris ilində rayonun tam orta məktəblərini bitirən məzunlardan 251 nəfəri ali məktəblərə, 1 nəfəri Polis Akademiyasına, 2 nəfəri Fövqəladə Hallar Nazirliyinin, 1 nəfəri Dövlət Təhlükəsizlik Xidmətinin, 8 nəfəri isə Dövlət Sərhəd Xidmətinin təhsil müəssisələrinə sənəd verib. Abituriyentlərimizin 167 nəfəri ali məktəblərə qəbul olunub. Onlardan 45 nəfəri 500, 13 nəfəri isə 600 baldan yuxarı nəticə əldə ediblər.

Valideynlər adından çıxış edən Hüsniyyə Tağıyeva rayonda təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlərə görə minnətdarlığını bildirib, yeni dərs ilində müəllim və şagirdlərə uğurlar arzulayıb.

* * *

## Culfa rayonu

***15 sentyabr – Bilik Günü münasibətilə Culfa rayonunun ümumtəhsil müəssisələrində də tədbirlər keçirilib. Bu qəbildən tədbirlərdən birinin ünvanı Yaycı kənd 1 nömrəli tam orta məktəb olub.***



Tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev yeni dərs ilinin başlanması münasibətilə müəllim və şagird kollektivini, valideynləri təbrik edib.

Qeyd edilib ki, ötən tədris ilində rayonda 26 tam orta məktəb və 6 məktəbdənkənar müəssisə fəaliyyət göstərib, bu məktəblərdə 4982 şagirdin təlim-tərbiyəsi ilə 770 müəllim məşğul olub.

Ötən tədris ilində rayonun təhsil müəssisələrinin qazandığı uğurlardan da söz açan Şükür Babayev bildirib ki, 2015-2016-cı tədris ilində 2 nəfər qızıl, 1 nəfər gümüş medala layiq görülən şagird olmaqla, ümumilikdə, məktəbi bitirən 398 məzundan 302 nəfər ali məktəblərə qəbul olunmaq üçün sənəd təqdim edib, onlardan 156 nəfəri ali məktəblərə, IX sinif bazasından isə 28 nəfər orta ixtisas məktəblərinə qəbul olunub. Bundan əlavə, tam orta təhsil bazasından 20 nəfər kolleclərə, 17 nəfər isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul edilib. Ali məktəblərə qəbul olan şagirdlərdən 26 nəfəri 500-600, 9 nəfəri 600-700 arasında bal toplayıb. Bütün bu göstəricilər rayonda təhsil sahəsində qazanılan nailiyyətlərdən xəbər verir. Təbii ki, əldə olunan nailiyyətlərin əsasında təhsilə göstərilən hərtərəfli dövlət qayğısı dayanır. Son illər muxtar respublikamızda aparılan genişmiqyaslı quruculuq tədbirlərindən Culfa rayonuna da xeyli pay düşüb, 21 yeni məktəb binası tikilərək və ya yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilib. Hazırda rayonun Gülüstan kəndində tikilən yeni məktəb binasında son tamamlama işləri görülür. Yeni tədris ilində 4900 şagird rayonun 26 tam orta məktəbində təhsil alacaq. Onlardan 536 nəfəri ilk dəfə məktəbə qədəm qoyur.

Sonra məktəbin birinci sinfinə qəbul edilmiş bir qrup şagird müəllim peşəsinə, Vətənə, məktəb illərinə aid şeirlər söyləyib, şagirdlər ilk zəngin sədaları altında məktəbə daxil olublar.

## Kəngərli rayonu

Kəngərli rayonunun Qıvraq qəsəbə tam orta məktəbində Bilik Günü münasibətilə keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı prioritet istiqamət təşkil edir. Yeni inkişaf yolunda uğurla addımlayan muxtar respublikamızda təhsil sahəsinə böyük qayğı göstərilir. Yeni məktəb binalarının tikilməsi, təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi diqqət mərkəzində saxlanılır. Bunu Kəngərli rayonunun timsalında da görmək olar.

Rayonda 12 ümumtəhsil məktəbi, 4 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Bu ilin yanvar ayında Yurdçu kənd tam orta məktəbinin yeni binası istifadəyə verildikdən sonra Kəngərli rayonunda fəaliyyət göstərən tam orta məktəblərin hamısı müasir bina ilə təmin edilib. Eyni zamanda ötən il rayon Təhsil Şöbəsi və Uşaq-gənclər şahmat məktəbi üçün yeni bina inşa edilərək istifadəyə verilib.



Qeyd olunub ki, 2015-2016-cı tədris ilində rayonun ümumtəhsil məktəbləri üzrə XI sinfi bitirmiş 203 məzundan 146 nəfəri ali məktəblərə, 18 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunmaq üçün sənəd verib. Onlardan 86-sı ali məktəblərə, 2-si Dövlət Sərhəd Xidməti Akademiyasına, 6-sı Polis Akademiyasına, 18 nəfəri isə orta ixtisas müəssisələrinə qəbul olunub. Ali məktəblərə qəbul imtahanlarında iştirak edən şagirdlərdən 16 nəfəri 500-700 arası bal toplayıb.

İcra başçısı Bilik Günü münasibətilə rayonun bütün pedaqoji kollektivlərini təbrik edərək onlara növbəti dərs ilində daha böyük uğurlar arzulayıb.

Tədbirdə Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Əli Vəliyev, Qıvraq qəsəbə tam orta məktəbinin direktoru Mahmud Cavadov çıxış ediblər.

* * *

## Şahbuz rayonu

***Bilik Günü münasibətilə Şahbuz rayonunun da bütün məktəblərində tədbirlər keçirilib.***



Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə keçirilən tədbiri giriş sözü ilə açan rayon Təhsil Şöbəsinin müdir əvəzi Eylaz İsmayılov müəllimləri və şagirdləri yeni dərs ili münasibətilə təbrik edərək onlara uğurlar arzulayıb.

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev müəllim və şagirdləri əlamətdar gün münasibətilə təbrik edərək bildirib ki, bu gün Şahbuz rayonunun müəllim və şagird kollektivləri də ən yüksək səviyyədə dövlət qayğısı ilə əhatə olunublar. Rayonda 23 tam orta məktəb, 4 məktəbdənkənar müəssisə, 1 idman və 1 şahmat məktəbi fəaliyyət göstərir. Son illər 21 yeni məktəb binası pedaqoji kollektivlərin istifadəsinə verilib. Kolanı kənd məktəbinin tikintisi isə davam etdirilir.

Bildirilib ki, 2015-2016-cı tədris ilində rayonun ümumtəhsil məktəblərinin XI siniflərini bitirmiş 166 nəfər məzundan 141 nəfəri ali məktəblərə qəbul üçün sənəd verib, onlardan 83 nəfəri, yəni 59 faizi ali məktəblərə qəbul olunub. Bu il 1 nəfər qızıl, 1 nəfər isə gümüş medala layiq görülüb, həmin məzunlar etimadı doğrultdular. Qəbul olunanlar içərisində 9 nəfər məzun 600-700, 12 nəfər məzun isə 500-600 intervalında bal toplayıb. Nurəddin Quliyev tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, rayonun pedaqoji kollektivləri qazanılan uğurları son hədd hesab etməməli, növbəti dərs ilində daha böyük göstəricilərə nail olmaq üçün yaradılan şəraitdən səmərəli istifadə etməyə səy göstərməli, muxtar respublikada təhsilin inkişafına öz töhfələrini verməlidirlər.

Sonra məktəbin direktoru Məhərrəm İsmayılov, təhsil ocağının Azərbaycan dili və ədəbiyyat müəllimi Növrəstə Xudiyeva Bilik Günü və yeni dərs ilinin başlanması münasibətilə müəllim və şagirdləri təbrik edib, onlara uğurlar arzulayıblar.

*Ardı 4-cü səhifədə*

**Sədərək rayonu**



***Ölkəmizin, eləcə də muxtar respublikamızın bütün təhsil ocaqlarının şagirdləri kimi, Sədərək məktəbliləri də Bilik Günündə yeni tədris ilinin sevincini yaşayıblar. Xüsusilə birinci siniflərə qədəm qoyan məktəblilər üçün ilk dərs günü əsl bayram ab-havasında keçib.***

Sədərək kənd 1 nömrəli tam orta məktəbdə keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov Bilik Günü və yeni dərs ili münasibətilə tədbir iştirakçılarını təbrik edib.

Həbib İbrahimov bildirib ki, ölkəmizdə təhsilin uzunmüddətli dövr üçün əsas inkişaf istiqamətlərini müəyyən edən milli təhsil konsepsiyası və təhsil sisteminin inkişafını nəzərdə tutan dövlət proqramları qəbul olunub. Müasir konsepsiya və proqramların əsas tələblərindən biri də milli-mənəvi və ümumbəşəri dəyərlərə dərindən yiyələnən, onları qoruyan və inkişaf etdirən, geniş dünyagörüşə malik olan, təşəbbüs və yenilikləri qiymətləndirməyi bacaran, təhsil aldığı ixtisas üzrə nəzəri və praktik biliklərə tamamilə sahiblənən, yenilikçi təfəkkürlü mütəxəssis hazırlanmasıdır. Odur ki muxtar respublikada bu sahəyə xüsusi diqqət yetirilir, təhsilimizin möhkəm təməllər üzərində qurulmasına şərait yaradılır.

Qeyd edilib ki, ötən tədris ilində rayonda orta təhsilini başa vuranlardan 48 nəfəri ali məktəblərə qəbul üçün sənəd verib və 23 nəfəri yüksək nəticə göstərərək tələbə adını qazanıb. Abituriyentlərdən 5 nəfəri 500-700 intervalında bal toplayıb. Orta ixtisas məktəblərinə 10, Heydər Əliyev adına Hərbi Liseyə 1, Azərbaycan Dövlət Sərhəd Xidməti Akademiyasına 1 nəfər qəbul olunub. Bütün bunlar uğurlu göstəricilərdir. Ancaq bunlarla kifayətlənmək olmaz. Dövlətimizin təhsil sahəsinə göstərdiyi qayğını üzərlərində hiss edən müəllim kollektivi və şagirdlərimiz daha səylə çalışmalı, yeni tədris ilində daha böyük uğurlar qazanmalıdırlar. Bu təhsil ilində rayondakı məktəblərin birinci siniflərində 144 nəfər şagird təhsil alacaq. Dövlətimizin yüksək diqqət və qayğısına ancaq və ancaq gündən-günə artan uğurlarla cavab vermək olar.

Sonra müəllim və valideynlər çıxışlar ediblər, şagirdlər ilk zəngin sədaları altında siniflərə daxil olublar.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq olunan "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"na uyğun olaraq, xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumtəhsil məktəblərinə cəlbi diqqət mərkəzində saxlanılır.*



Distant dərsi sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli respublika Xüsusi İnternat Məktəbinin müəllimi tədris edir.

Sentyabrın 15-i bütün məktəblərdə olduğu kimi, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində də hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən distant tədrisə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqlar 2016-2017-ci tədris ilinin ilk dərsini keçib. Hazırda mərkəzdə 24 hərəkət qabiliyyəti məhdud şagird təhsil alır, onların təhsili ilə 4 müəllim məşğul olur. Distant tədrisə yeni cəlb olunan iki uşağın yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və veb-kameralar qoyulub.

Eyni zamanda mərkəzdə fəaliyyət göstərən görmə qabiliyyəti məhdud uşaqlar üçün xüsusi ibtidai məktəbdə də uşaqların iştirakı ilə ilk dərslərə başlanılıb. Günün ikinci yarısında isə eşitmə qabiliyyəti məhdud şəxslər üçün, həmçinin bu kateqoriyalı uşaqlardan təşkil olunan məktəbyaşlı qrupa daktilo əlifbasının tədrisi üzrə ilk distant dərs keçilib.

Məlumat üçün bildirək ki, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlara müasir informasiya texnologiyalarının istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlər təşkil edilir və müxtəlif sosial reabilitasiya xidmətləri göstərilir. Təlimlərə bu kateqoriyadan olan yeni uşaqların cəlbi istiqamətində fəaliyyətə başlanılıb.

Qeyd edək ki, Bilik Günü ərəfəsində Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayonlarında keçirilmiş tədbirlərdə aztəminatlı, həmçinin distant tədrisə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqlara məktəbli geyimi və ləvazimatları təqdim olunub.

**Xəbərlər şöbəsi**

# Naxçıvan: Paleolit və Neolit dövrünün inkişafı

***Naxçıvan Muxtar Respublikasında Paleolit dövrü Ali Məclisin Sədri Vasif Talıbovun rəhbərliyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən geniş tədqiq edilmişdir.***

Ordubad və Sədərək rayonlarında aparılmış qazıntılar zamanı aşkar olunmuş arxeoloji xəzinələr və qiymətli qədim alətlər təsdiq edir ki, Paleolit dövrü Naxçıvanda, təxminən, 1 milyon il əvvəl mövcud olmuşdur. Ordubad rayonunun Tivi kəndinin cənub-şərqində olan İlikliqaya nekropolunda aparılmış qazıntılar zamanı oradan daş alətlər və yerli daşlardan hazırlanmış kəsici əşyalar, həmçinin Erkən Tunc və Dəmir dövrlərinə aid maddi-mədəniyyət nümunələri tapılmışdır. Aşkar olunmuş materiallar başlıca olaraq gil məmulatlarından ibarətdir. Kuzə, fincan, vaza tipli qabların parçalarından ibarət olan keramika nümunələri boz rəngdə olub, yaxşı bişirilmişdir. Bu keramika nümunələri 2-ci minilliyə, Son Tunc dövrünə aiddir. Bir neçə Paleolit daş alətləri ilə yanaşı, keramika nümunələri də İlikliqaya ərazisində aşkar olunmuşdur. İlikliqaya çox qədim yaşayış məskənidir və təpənin üzərində yerləşir. Mövcud olmuş tikililərin qalıqlarına əsaslanaraq demək olar ki, binalar yonulmamış qaya parçalarından inşa olunub və orada mədəni təbəqənin qalınlığı 1 metrə çatır. Keramika məmulatları isə çəhrayı və boz rəngdə bişirilmişdir.

Digər arxeoloji ərazi Sədərək rayonunun Sədərək kəndi yaxınlığında yerləşən və 5 hektar ərazini əhatə edən Tunc dövrünə aid "Kültəpə" yaşayış məskənidir. Erkən Tunc dövründəki yüksək əhəmiyyəti və mədəni təbəqənin Son Paleolit dövrünə aid olması bu yaşayış yerini Naxçıvan Muxtar Respublikasının mühüm hissəsinə çevirmişdir. Ordubad kimi, "Kültəpə" yaşayış məskəni də ucu miz və digər daş əmək alətlərinin məskənidir. Mədəni təbəqəsi isə kül qarışıq gil laylardan, çaxmaqdaşı və obsidian (dəvəgözü) qırıntılarından ibarətdir. Həmçinin qazıntılar zamanı bu ərazidən kül yığınaqları, ocaq qalıqları, müxtəlif formalı daşlar, çiy kərpic və digər tikinti materialları aşkar olunmuşdur.




Əlavə olaraq "Kültəpə" yaşayış məskənindən çoxlu sayda keramika məmulatları – xüsusilə boz və qırmızı rəngdə bişirilmiş gil qab nümunələri və üzəri qırmızı anqobla örtülərək qara rənglə naxışlanmış boyalı qablar tapılmışdır. Yerli alimlərin fikrincə, bu yaşayış məskəni yerli mədəniyyətin 5-ci minilliyə aid olmasını, həmçinin Naxçıvanın Paleolit dövrü ilə bağlılığına dair məlumatları təsdiq edir.

Naxçıvan ərazisində qədim insan yaşayışı və istehsal təkamülü çox qədimdir. Ordubad və Sədərək ərazilərində olan bir neçə arxeoloji ərazidə aşkar olunmuş zəngin nümunələr Azərbaycanın bu regionunda Paleolit cəmiyyətinin mövcud olmasını təsdiq edir. Naxçıvan Muxtar Respublikasının rəhbərliyi yerli və beynəlxalq alimləri həvəsləndirərək onlara Qara zağa və Qazma mağaralarında tədqiqat aparmaq üçün şərait yaratmışdır. Bu tədqiqatlar nəticəsində ərazidən elmi əhəmiyyət kəsb edən məlumatlar əldə olunmuşdur.

Qazma mağarasında aparılmış tədqiqatlar nəticəsində arxeoloqlar 3 metr dərinliyində 6 mədəni təbəqə aşkar etmişlər. 4, 5 və 6-cı mədəni təbəqələrdə heyvan sümüklərinin qalıqları, həmçinin ocaq yeri və Mustye mədəniyyətinə aid daş alətlər tapılmışdır. 6-cı təbəqədə tapılmış yastı daşlardan hazırlanmış iki ocaq daha ətraflı elmi məlumatlar verir. Mədəni təbəqədən aşkar olunmuş alətlərin 97 faizi obsidiandan, 21 faizi çaxmaqdaşından, digər 5 alətin isə daş şistdən hazırlandığı təsdiq olunmuşdur. Obsidian və çaxmaqdaşından hazırlanmış alətlərlə birgə, mağarada daşdan hazırlanmış bir neçə biz və qaşovlar aşkarlanmışdır ki, həmin alətlər mağaranın daxilində gərgin insan fəaliyyəti və daş sənətkarlığının mövcud olmasını təsdiq edir.

4-cü mədəni təbəqədən daş alətlərlə yanaşı, heyvan sümüklərindən hazırlanmış biz, bıçaq, kəsici və oyucu alətlər də aşkar olunmuşdur. Qazma mağarasında hazırlanmış alətləri Cənubi Qafqaz və Kiçik Asiyada olan digər Mustye yaşayış məskənlərindən tapılmış alətlərlə müqayisə etsək, onlar arasındakı oxşarlığı görə bilərik. Qazma mağarasından əldə edilmiş məlumatlara görə, ovçuluq sakinlərin əsas məşğuliyyəti olmuş, heyvanlar üçün yem tədarükü isə insanların mağara fəaliyyətində ikinci yerdə dayanmışdır.

Naxçıvan Muxtar Respublikasında Neolit dövrü barədə çox az məlumat mövcuddur. Həqiqətən, burada çox az sayda Neolit dövrünü əhatə edən yaşayış ərazisi vardır. 2006-2007-ci illərdə professor Vəli Baxşəliyev tərəfindən aparılmış tədqiqat nəticəsində Neolit dövrünə aid az sayda məlumatlar əldə edilmişdir.

Əslində, 1950-ci ildə I Kültəpədə aparılmış qazıntılara qədər Naxçıvanda Neolit dövrünü əhatə edən kifayət qədər ərazi aşkar olunmamışdı. Bundan başqa, boyalı saxsı qablara əsaslanaraq I Kültəpə erkən sənət təbəqələrinin Neolit xüsusiyyətləri öz-özlüyündə müzakirə mövzusudur. 1-ci təbəqədən aşkar olunmuş boyalı saxsı qabların Son Neolit, yaxud Erkən Eneolit dövrünə aid olmasından asılı olaraq əldə edilmiş məlumatlara istinad edərək qeyd etmək lazımdır ki, Naxçıvanın Neolit dövrü çox zəif olub. Dulusçuluqdan öncəki Neolit yaşayış məskənlərinin olmaması gözlə görünəndir. I Kültəpənin birinci qatı keramika təbəqəsinə malikdir və 7-ci minilliyə aiddir.

Bundan əlavə, I Kültəpənin birinci təbəqəsi ilə Yaxın Şərqdə yerləşən Neolit ərazilər arasında oxşarlıqlar vardır. Məsələn, I Kültəpədə kvadrat formalı evlər aşkar olunmuşdur. Bu forma Ermənistandakı Neolit dövrünə aid Artaşen dairəvi arxitekturası ilə ziddiyyət təşkil edir. I Kültəpə mədəni təbəqəsində ev döşəmələri qarışıq quru bitki materialları və torpaq ilə suvanıb. Bəzi evlərdə hətta qamış həsirlərinin izləri vardır. Kültəpənin 1-ci "A" təbəqəsində olan boyalı saxsı qablar Yaxın Şərq mədəniyyətini əks etdirir. Lakin mövcud olan dəlillər boyalı saxsı qabların Amuq boyalı qablar istehsalına yaxın olmasını, incə boyalı qabların isə Hələf və Hələfdən öncəki dulusçuluqdan fərqləndiyini göstərir.

Mövcud olan digər dəlillər təsdiq edir ki, kənd təsərrüfatı, heyvandarlıq və ovçuluq iqtisadiyyat və istehsalda mühüm rol oynamışdır. Qəbirlərin tikinti qatlarının arasında aşkar olunması bu dövrdə yaşayış binalarının döşəməsində dəfnetmə adətinin mövcud olduğunu təsdiq edir. Qəbirlərdə bir, yaxud iki nəfər alət və ornamentlərlə birgə dəfn olunub. Skeletlərin bəzisində qırmızı boya izləri var. Bu mədəniyyət bütün dünyada, xüsusilə Paleolit dövründə geniş yayılmışdır. Həmçinin oxşar dəfnetmə təcrübəsi Dəclə hövzəsində də aşkarlanmışdır. Aparılmış elmi tədqiqatlara əsasən, bu mədəniyyət Neolit dövrünə aiddir.

Qeyd edilməlidir ki, 9850 il əvvələ aid olan Dəmirköy arxeoloji ərazisində aparılmış tədqiqatlar nəticəsində qara və qırmızı zolaqlarla boyanmış uşaq sümükləri aşkarlanmışdır. Bu təcrübə ya dəfn qabağı adətlərdən olan bədənin rənglənməsi mərasimini (cəsədin çürüməsindən sonra rənglənmiş dərinin rənginin sümüklərə çökməsi), ya da ki, dəfn sonrası yas mərasimlərinin mövcud olmasından irəli gəlir. I Kültəpə yaşayış məskənində oraq, bıçaq və buynuzdan hazırlanmış bıçaqların aşkar olunması Naxçıvanda inkişaf etmiş kənd təsərrüfatı təcrübəsini təsdiq edir. Bundan əlavə, Naxçıvanda toxuculuq, dulusçuluq, daşdan və sümükdən alətlər hazırlanması kimi yerli fəaliyyətlər də inkişaf etmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisində aparılmış arxeoloji tədqiqatlar Azərbaycanın bu regionunu beynəlxalq əhəmiyyətli əraziyə çevirərək Paleolit və Neolit dövründən bəri bəşəriyyətin iqtisadi, istehsal və təkamül inkişafına dair tarixinə böyük töhfələr vermişdir.

**Peter TASE**
**07.09.2016**
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" qəzeti***


*Məlumat*

İstehsalçıların və istehlakçıların nəzərinə çatdırılır ki, "Naxçıvan Meyvə Tərəvəz Məhsulları" MMC tərəfindən əkin və qida üçün sarımsaq məhsulunun satışı həyata keçirilir.

1,0 kiloqramının satış qiymət aşağıdakı kimidir:

*– toxumluq üçün sarımsaq məhsulu – 6,0 manat;*
*– qida üçün sarımsaq məhsulu – 6,50 manat.*

"Naxçıvan Meyvə Tərəvəz Məhsulları" MMC qida və toxumluq sarımsaq məhsulunun aşağıdakı əlaqə nömrələrinə müraciət əsasında ünvana çatdırılması xidmətini həyata keçirir.

***"Naxçıvan Meyvə Tərəvəz Məhsulları" MMC***
**Əlaqə telefonları: (050) 275-91-71, (036) 554-05-57**


***Bildiriş***

Ordubad "Quşçuluq" Açıq Səhmdar Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.

***İtmişdir***

Türkiyə vətəndaşı Memet Emin Çelikin adına verilmiş Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

"Cahan Əmlak" Məhdud Məsuliyyətli Cəmiyyətinin bütün qeydiyyat sənədləri itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 691